# SPORTSMAN

№ 164 / 2026 / 10 manat www.sportsman.az Jurnal 2004-cü ildən nəşr olunur


# DÖRDÜNCÜ DƏFƏ ZİRVƏDƏ!





dizayn Offissa

www.offissa.com

Zövqünüzə uyğun ofis mebeli



# BƏS SİZİN İDMAN KLUBUNUZ
# QƏFİL ÜRƏK DAYANMASINA
# HAZIRDIR ?

Qəfil ürək dayanması (ingiliscə Sudden Cardiac Arrest -SCA)
hər yerdə və istənilən vaxt baş verə bilər.
Bu halda zərərçəkənin həyatını yalnız xilasedici tərəfindən dərhal
edilən ürək-ağciyər reanimasiyası (ingiliscə CardioPulmonary
Resuscitation - CPR) və avtomatlaşdırılmış xarici defibrilyatorun
(Automated External Defibrillator - AED) tətbiqi sayəsində xilas etmək olur.
Avropa Reanimasiya Şurası (ERC) təcili tibbi yardımın gecikə
biləcəyi məkanların AED cihazları ilə təchiz edilməsini tövsiyə edir.
İdman meydançaları da bu kateqoriyaya daxildir.
Erkən müdaxilə sağ qalma ehtimalını əhəmiyyətli dərəcədə artırır.

**İdman klublarında qəfil ürək dayanması baş verdikdə hadisə yerində AED cihazının olması olduqca vacibdir.**




AED Plus®




Powerheart® G5




ZOLL AED 3®

# QƏFİL ÜRƏK DAYANMASI İLƏ BAĞLI YANLIŞ TƏSƏVVÜRLƏR



***“Meydançada, idman zalında AED saxlamağa ehtiyac yoxdur - idmançılar onsuz da sağlamdır”.***

Qəfil ürək dayanması heç kəsə fərq qoymur. O, istənilən yaşda və istənilən fiziki hazırlıq səviyyəsində olan insanda baş verə bilər. Avropada hər il 350 000-dən çox insan SCA-dan əziyyət çəkir.
Əksər hallarda belə hadisələr ictimai yerlərdə baş verir.



***“Bizim idman məkanımızda qəfil ürək dayanmasının baş verməsi üçün risk yoxdur”.***

Qəfil ürək dayanması bir çox səbəbdən baş verə bilər. Hətta adi bir yıxılma, zərbəyə məruz qalma və yaxud bədənə hər hansı travma ürək dayanmasını tətikləyə bilər.



***İdman meydançası xəstəxanadan, polis və ya yanğınsöndürmə məntəqəsindən uzaqda ola bilər.***

Həyati təhlükə yaradan xəstəlik, xəsarət və ya başqa bir təcili vəziyyət üçün təcili yardım çağırıldıqda, briqadanın hadisə yerinə çatma müddəti orta hesabla 7-18 dəqiqə təşkil edir.
Amma ürək dayanması keçirən şəxs üçün bu çox gec ola bilər. Yardım aparılmadan keçən hər dəqiqə sağ qalma şansını 10% azaldır.
Əgər meydança  və ya idman zalı AED ilə təchiz olunubsa, oradakı istənilən şəxs dərhal yüksək keyfiyyətli CPR edə və həyat qurtara biləcək elektrik şokunu verə bilər.

# ZOLL AED: idman klubu üçün vacib avadanlıq

İdman məkanlarında sağlamlıqla bağlı yaranan təxirəsalınmaz hallarda ilk yardımı vaxtında başlamaq və onu maksimal dərəcədə effektiv etmək üçün AED cihazları hadisə yerindən 3 dəqiqəlik məsafədə olmalıdır.
Böyük idman komplekslərində bu, bir neçə AED cihazının quraşdırılmasını tələb edə bilər. Beləliklə, hadisə harada baş verməsindən asılı olmayaraq, AED tez hadisə yerinə gətirilə bilər və zərərçəkənin sağ qalma şansı artar.

**ZOLL AED cihazları haqqında daha ətraflı məlumat əldə etmək üçün bizimlə əlaqə saxlayın.**




**Azərimed QSC**
Asif Məmmədov 30F
AZ1033 Bakı, Azərbaycan

+994 55 455 58 22
+994 55 455 86 27
office@azerimed.com
www.azerimed.com

**“Azərimed” QSC, ZOLL şirkətinin Azərbaycanda rəsmi distribyutorudur.**








SUPER KUPON 30% ENDİRİM

(+994) 12 525 41 52
(+994) 55 208 97 82

Nərimanov rayonu,
Aşıq Molla Cümə 46b

www.offissa.com

salon@offissa.com

offissa.dizayn

Offissa Dizayn

Offissa Dizayn

Bioloji Təbabət
İnteqrativ Müalicə Mərkəzi

SAĞALMAYAN XRONİKİ XƏSTƏLİKLƏRƏ YENİ BİR ÇIXIŞ YOLU!

www.btk.az



İNTEQRATİV MÜALİCƏ METODLARI İLƏ BÜTÜN XƏSTƏLİKLƏRDƏN AZAD OLA BİLƏRSƏN!

(012) / (050)
(055) / (070) 430 89 89

3 mkr., Pişəvəri küç. 110
(Cavadxan küç. 24)

FILTREX

# Suyunuz şirin gəlsin




Hər növ su təmizləmə sistemləri :
-Əks osmos sistemləri
-Yumuşaldıcı avadanlıqlar
-Mexaniki təmizləmə filtrləri
-Ultrafiltrasiya
-Sənaye və magistral filtrləri
-Kafe və restoranlar üçün filtrlər
-Hovuzların tikintisi və qulluğu

www.filtrex.az info@filtrex.az +994 50 224 61 04

# BU SAYIMIZDA





*IV DƏFƏ ZİRVƏDƏ!*

**səh.6**

*MAQSUD ADIGÖZƏLOV:*
*İLK GÜNDƏN HƏM BASKETBOLDA, HƏM DƏ FUTBOLDA ÇEMPİON OLMAQ İSTƏYİRDİK!*



**səh.10**



*"XİLASEDİCİ" ÇEMPİON!*

**səh.12**

*SAHİL BABAYEV ABF-NİN PREZİDENTİ SEÇİLİB*



**səh.32**



*TİRANADA "QIZIL DUBL"*

**səh.34**

*“PREZİDENT KUBOKU 2026” BEYNƏLXALQ REQATASI*



**səh.38**



*AZƏRBAYCAN KUBOKU DA “SABAH”DA*

**səh.44**

*ALMANİYANIN BARLEBEN ŞƏHƏRİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ HƏSR EDİLMİŞ İDMAN FESTİVALI*



**səh.45**



**SPORTSMAN**

**Baş redaktor:**
Rəşad Qəmərşahoğlu
*əməkdar jurnalist*
*idman ustası*

Ünvan: Bakı, Fətəli Xan Xoyski 10,
Tofiq Bəhramov adına
Respublika Stadionu
Telefon: 012 511 23 45
e-mail: sportsmagazine@mail.ru
www.sportsman.az

Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. №1164

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Reklamlarda gedən mətnlərə görə jurnal məsuliyyət daşımır.

Jurnalda "AZƏRTAC" DİA-nin və İdman.biz saytının materiallarından istifadə edilib.


***Üz səhifədə:***

"Sabah" Basketbol Klubunun üzvləri Gənclər və İdman naziri Fərid Qayıbov və digər idman rəsmiləri ilə

# DÖRDÜNCÜ DƏFƏ ZİRVƏDƏ!



***Azərbaycan basketbolunda "Sabah" erası davam edir. Reqlamentə əsasən, final seriyasında üç qələbəyə çatan kollektiv Azərbaycan Basketbol Liqasının qalibi olur. Final seriyasının hər üç oyununda Abşeron Lions" üzərində inamlı qələbə qazanan (98:93, 112:84, 108:95) "Sabah", 2025/2026 mövsümünün çempionu olub. Çempionluq kubokunu və qızıl medalları gənclər və idman naziri Fərid Qayıbov və Azərbaycan Basketbol Federasiyasının prezidenti Emin Əmrullayev təqdim edib. Bu, klubun ardıcıl dördüncü çempionluğudur və şəxsən mənim də bu oyunun canlı şahidi olmağım "Sportsman"nən də izsiz ötüşmədi…***



Final seriyası başlamazdan əvvəl bir çoxları "Abşeron Lions"un "Sabah"ın taxtını sarsıda biləcəyini düşünürdü. Mövsüm boyu stabil oyun nümayiş etdirən "şirlər" finalın ilk iki qarşılaşmasında ciddi mübarizə aparsalar da, təcrübə və soyuqqanlılıq öz sözünü dedi. Seriyanın həlledici, üçüncü oyununda "Sabah" meydançaya yalnız bir məqsədlə çıxmışdı: seriyanı uzatmamaq və kuboku Bakı səmalarına qaldırmaq. Oyunun ilk dəqiqələrindən tətbiq edilən aqressiv müdafiə və dəqiq uzaq məsafəli atışlar rəqibin oyun planını alt-üst etdi. "Abşeron Lions"un heyətindəki legionerlərin fərdi cəhdləri "Sabah"ın monolit komanda oyunu qarşısında aciz qaldı.




Əlbəttə ki, bu çempionluq sadəcə təsadüf deyil, düzgün qurulmuş sistemin nəticəsidir. Baş məşqçinin taktiki gedişləri, oyunçular arasındakı mükəmməl kimya və klub rəhbərliyinin basketbola olan peşəkar yanaşması "Sabah"ı ölkənin bir nömrəli klubuna çevirib. Meydandakı liderlik isə hər zamankı kimi kapitanın və həlledici anlarda məsuliyyəti üzərinə götürən aparıcı oyunçuların üzərində idi. "Sabah"ın hücum xətti rəqib müdafiəsini həm boyalı sahədə, həm də perimetr xaricində darmadağın etdi.




CHAMPIONS
ÇEMPİON


LIONS

## Tarixi nailiyyət: "4-də 4"

Azərbaycan Basketbol Liqası (ABL) tarixində ardıcıl dörd dəfə qalib gəlmək hər komandaya nəsib olan uğur deyil. Bu nəticə "Sabah"ı ölkə basketbolunun "Qızıl Fondu"na daxil edir. Klub artıq daxili arenada rəqib tanımadığını sübut etdi və indi hədəflər daha böyükdür.

## Sırada nə var?

2025/2026 mövsümünün qızıl medalları artıq "Sabah"ın muzeyindədir. Lakin bu zəfər həm də böyük bir məsuliyyət deməkdir. Gələn mövsüm rəqiblər bu dominantlığa son qoymaq üçün daha çox çalışacaqlar. Digər tərəfdən, Azərbaycan azarkeşi bu güclü heyəti artıq Avropa arenalarında, beynəlxalq turnirlərdə daha böyük qələbələrlə görmək istəyir.

"Sabah" Azərbaycan basketboluna yeni nəfəs, yeni standart gətirdi. İndi hamını bir sual düşündürür: Bu qələbə seriyasını kim və nə vaxt dayandıra biləcək? Yoxsa beşinci çempionluq üçün hazırlıqlar artıq başlayıb?

## Gözlər Avropada!

"Sabah"ın daxili çempionatdakı dördillik hegemonluğu artıq bir faktordur. Lakin bu klubun vizyonu təkcə ölkə hüdudları ilə məhdudlaşmır. Ardıcıl qazanılan qızıl medallar həm də Avropa kuboklarında daha iddialı çıxış etmək üçün böyük bir tramplindir.

Fikrimcə, "Sabah"ın hazırkı heyət strukturu və oyun fəlsəfəsi FIBA-nın nüfuzlu turnirlərində qrup mərhələsini keçmək, hətta pley-off həyəcanı yaşamaq üçün kifayət qədər potensiala malikdir. Azərbaycan basketbolunu qitə səviyyəsində layiqincə təmsil edən klub, 2025/2026 mövsümünün çempionluğu ilə "biz daha böyük sınaqlara hazırıq" mesajını verdi.

Avropanın köklü klubları ilə mübarizədə qazanılacaq hər bir qələbə, yalnız "Sabah"ın deyil, bütövlükdə Azərbaycan basketbolunun reytinqini yüksəldəcək. İndi azarkeşlərin ən böyük arzusu, doğma divarlar arasında "Fənərbaxça", "Real Madrid" və ya "Makaabi" kimi devləri qəbul edəcək səviyyəyə yüksəlməkdir. "Sabah" üçün yol hələ yeni başlayır. Yolun açıq olsun! Sənə qələbə yaraşır!

***Vidadi Baxşiyev***






## MAQSUD ADIGÖZƏLOV:

# İLK GÜNDƏN HƏM BASKETBOLDA, HƏM DƏ FUTBOLDA ÇEMPİON OLMAQ İSTƏYİRDİK!

**“Sabah” dördüncü dəfə Azərbaycan Basketbol Liqasının qalibi olub. Bu mövsüm daha çətin görünür?**

Yox, məncə daha maraqlı oldu. Rəqiblər güclənib və yaxşı basketbol oynayırlar. Məsələn, “Abşeron Lions” çox yaxşı komanda toplayıb. Amma deməzdim ki, mövsüm çətin keçdi. ABL-də cəmi bir oyunda məğlub olduq.

**Yəqin ki, “Sabah”ın üstünlüyünün davam edəcəyinə ümid edirsiniz. Gözləntiləriniz nədir?**

Gözlənti, təbii ki, çempionluqdur. Avropada da yaxşı nəticə göstərməyə çalışacağıq.

**Bu il “Sabah” futbol komandası da çempion olub. Klub direktoru kimi qarşıya qoyduğunuz məqsədə nail olduğunuzu deyə bilərikmi?**

Maraqlı sualdır. Çempion olmaq, ümumiyyətlə, heç nəyə nail olmaq istəmədiyini deyən adam tanımıram. Hər kəs öz sahəsində zirvədə olmaq istəyir. Biz ilk gündən həm basketbolda, həm də futbolda çempion olmaq istəyirik. Sadəcə vaxt lazımdı. Addım-addım oraya çatdıq. İndi deyə bilərik ki, düzgün yolu seçmişik. Bu həm futbola, həm də basketbola aiddir. Amma davamı olmalıdır.

**Qızıl qazanmaq harada daha çətin idi - futbolda, yoxsa basketbolda?**






Təbii ki, futbolda. Orada bizim "Qarabağ" kimi rəqibimiz var. "Qarabağ" bu qədər güclü olmasaydı, yəqin ki, bu gün belə güclü "Sabah" görməzdiniz. "Qarabağ" həmişə bir-iki addım öndə olub. Biz həmişə onları tutmaq istəyirdik. Bu mövsüm uğur qazandıq.

**"Sabah" basketbolunu Avroliqada, futbol komandasını isə Çempionlar Liqasında görmək nə dərəcədə realdır?**

Basketbolda biz Avroliqada yox, Çempionlar Liqasında oynayırıq. Hələlik Çempionlar Liqasında özümüzü sübut etməyə, orada nəyəsə nail olmağa çalışaq. Sonra bu haqda danışarıq. Hazırda hədəfimiz Çempionlar Liqasıdır. Orada çox yaxşı, təcrübəli komandalar var. Çempionlar Liqasında yaxşı oyun göstərməyə çalışacağıq.

**Sizcə, "Sabah Basketbol"un Avropa yarışlarında qrup mərhələsindən irəliləməsinin vaxtı çatıbmı?**

Keçən il də qrup mərhələsindən irəliləyə bilərdik. Səhv etdik. Fransanın "Elan Şalon" klubu ilə oyunumuzda son dəqiqələrə kimi öndə idik. Qələbə qazansaydıq, qrup mərhələsinə yüksələrdik. Sadəcə belə oldu. Bəlkə də bu, ən yaxşısı idi – təcrübə qazandıq. Ötən mövsüm də püşkatma çətin idi. Rəqiblərimiz Nymburk, Chalon və Alba idi. Onlar pley-offa yüksəldilər. Ola bilsin ki, növbəti mövsüm daha yaxşı nəticə göstərək.

**Deyirlər ki, zirvəyə qalxmaq asan ola bilər, amma orada qalmaq daha çətindir. Həm futbolda, həm də basketbolda buna nail olmaq üçün nə etməyi planlaşdırırsınız?**

Biz basketbolda artıq buna nail olmuşuq. Futbolda təbii ki, daha çətin olacaq. Uğur qazanıb-qazanmayacağımızı gələn mövsüm görəcəyik. Dediyiniz kimi, zirvədə qalmaq daha çətindir. Bizim liqada zirvəyə çıxmaq belə asan deyil. İndi bizim növbəti məqsədimiz oradakı mövqeyimizi möhkəmləndirməkdir.

***Yusif Əliyev***




# "XİLASEDİCİ" ÇEMPİON!

**Aprelin 18-i Azərbaycan kişi voleybolunda 2025/2026 mövsümünün möhtəşəm final oyunları ilə tarixə düşdü. Bu gün Gənclər və İdman Nazirliyinin Voleybol Mərkəzində Yüksək Liqanın mükafatları uğrunda oyunlar keçirilib. Gərgin mübarizə, peşəkar oyun və azarkeş coşqusu ilə müşayiət olunan Yüksək Liqanın mükafatçıları bəlli olub.**

## Mübarizə meydanında 6 komanda

***Bu mövsüm Yüksək Liqada ölkənin ən güclü 6 klubu birincilik uğrunda yarışmışdır:***

- **"Xilasedici":** Mövsüm boyu stabil və hücummeyilli oyunu ilə seçilən komanda həm ölkə kubokunun, həm də çempionatın əsas favoriti idi.
- **"Ordu":** Müdafiə Nazirliyini təmsil edən bu kollektiv nizam-intizamlı oyunu ilə pley-off mərhələsinə qədər inamla irəlilədi.
- **"Neftçi":** Uzun illərin voleybol ənənələrini qoruyan komanda builki çempionatda xarakter nümayiş etdirərək bürünc medallara sahib çıxdı.
- **"Murov Az Terminal":** Gənc və perspektivli oyunçuları ilə çempionatın ən rəqabətədavamlı klublarından biri kimi yadda qaldı.
- **"AZERRAIL":** Təcrübəli heyəti ilə ilkin mərhələdə güclü müqavimət göstərsə də, yarımfinal şansını son turlarda itirdi.
- **"Gənclər":** Liqanın ən cavan heyətinə malik olan bu komanda gələcək üçün böyük təcrübə topladı.




ALMORA
9
DA SILVA
10


3
ORDU VK
38




## Mükafatçılar

Üçüncü yer uğrunda qarşılaşmada "Neftçi" və "Murov Az Terminal" komandaları üz-üzə gəlib. Oyun "ağ-qaralar"ın tam üstünlüyü ilə keçib. "Neftçi" rəqibini 3:0 (25:17, 25:17, 25:13) hesabı ilə məğlub edərək fəxri kürsünün üçüncü pilləsinə yüksəlib.

Çempionluq uğrunda isə "Xilasedici" və "Ordu" komandaları arasında keçən final görüşü əsl idman bayramına çevrilib. İlk setdə "Ordu" (26:24) hesabı ilə önə keçsə də, "Xilasedici" iradə nümayiş etdirərək növbəti setləri qazanıb.



Gərgin idman mübarizəsi ilə keçən matç 3:1 (24:26, 25:16, 27:25, 25:21) hesabı ilə "Xilasedici"nin xeyrinə başa çatıb. Bu qələbə ilə komanda Azərbaycan çempionu adını qazanıb.

Final qarşılaşmasından sonra mükafatlandırma mərasimi keçirilib. Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edərək voleybol üzrə kişilər arasında Azərbaycan çempionatında maraqlı və gərgin final oyunu izlənildiyini bildirib. Avrokuboklara vəsiqə qazanan komandalara beynəlxalq arenalarda uğurlar arzulayıb.

"Xilasedici" komandasının bu tarixi uğurunda Fövqəladə Hallar Nazirliyinin (FHN) rolu əvəzsizdir. Şəxsən nazir, general-polkovnik Kəmaləddin Heydərovun komandaya göstərdiyi diqqət, həmçinin final oyununu arenadan izləyərək idmançılara mənəvi dəstək olması kollektivin motivasiyasını ən yüksək səviyyəyə qaldırıb.



Cənab Heydərov çempionlara medalları şəxsən təqdim edərək onların sevincinə şərik olub. Sonda isə bütün komanda ilə xatirə fotosu çəkdirərək qələbədə əməyi olan hər kəsə təşəkkürlərini bildirib.




SEKTOR 7
ORDU VK




Çempionatın gümüş medallarına sahib çıxan "Ordu" komandası da mövsüm boyu nümayiş etdirdiyi əzmkar və nizam-intizamlı oyunu ilə bütün mütəxəssislərin rəğbətini qazandı. Finala gedən yolda göstərilən yüksək performans təsadüfi deyil. Bu, Müdafiə Nazirliyinin idmana və hərbi qulluqçuların fiziki hazırlığına verdiyi önəmin bariz nümunəsidir.




Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun şəxsi diqqəti və qayğısı sayəsində klub qısa müddətdə güclü heyətə malik kollektivə çevrilib. Nazirliyin yaratdığı yüksək şərait idmançıların həm daxili çempionatda, həm də beynəlxalq arenalarda (hərbçilərin dünya çempionatları və s.) ölkəmizi layiqincə təmsil etməsinə münbit şərait yaradır. Final oyununda "Ordu" voleybolçularının hər xal üçün sona qədər mübarizə aparması məhz ordumuzun məğlubedilməz ruhunun meydandakı təzahürü idi.

# MÖVSÜMÜN ƏN YAXŞILARI

Mükafatlandırma mərasimindən öncə liqada fərqlənmiş ən yaxşı voleybolçular xüsusi nominasiyalar üzrə təltif olunublar. Daha sonra mövsümün rəmzi heyəti açıqlanıb.

AVF-nin vitse-prezidenti Faiq Qarayev, Bəhruz Quliyev və baş katib Faiq Orucov çempionatda fərqlənən voleybolçulara "Ən yaxşı oyunçu" mükafatlarını təqdim ediblər. Ardından qaliblərə kubok və medallar verilib. Çempiona kuboku Çingiz Hüseynzadə və AVF-nin prezidenti Şahin Bağırov təqdim edib.

***"Ən dəyərli oyunçu" (MVP) – Reyes Rodriges ("Xilasedici")***
***"Ən gənc və perspektivli oyunçu" – Fərhat Cenkel ("Murov Az Terminal")***
***"Ən yaxşı toppaylayıcı" – Roman Qurskiy ("Xilasedici")***
***"Ən yaxşı hücumçu" – Aleksandr Popleteev ("Xilasedici")***
***"Ən yaxşı hücumçu" – Willian Rabel ("ORDU")***
***"Ən yaxşı libero" – Kənan Allahverdiyev ("ORDU")***
***"Ən yaxşı orta oyunçu"– Gustavo Almora ("Xilasedici")***
***"Ən yaxşı orta oyunçu"– Carabali Aleksadr ("Neftçi")***
***"Ən yaxşı diaqonal oyunçu" - Romero Jose ("Neftçi")***







PASHA Holding
ABB
B2B GROUP
AMINOL
BETA TEA
SUZUKI
avrora
AZE
BUZ GROUP


AZƏRBAYCAN VOLEYBOL FEDERASİYASI
FHN YILASEDICI
AMINOL


QADINLAR
AZƏRBAYCAN VOLEYBOL FEDERASİYASI




## AVF-nin İnkişaf Strategiyası

Sonda maraqlı oyunların təşkilində və keçirilməsindəki xidmətlərinə görə bütün voleybol sevərlər adından AVF-yə təşəkkür etmək də yerinə düşər.

Azərbaycan Voleybol Federasiyasının prezidenti Şahin Bağırovun rəhbərliyi ilə son dövrlər ölkədə voleybolun populyarlığı sürətlə artmaqdadır. Milli çempionatın yüksək səviyyədə təşkili, klublara yaradılan şərait və beynəlxalq standartlara uyğun rəqabət mühiti Azərbaycan voleybolunun yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bir daha sübut edir.




YÜKSƏK LİQA 2025-2026
silkway
west airlines
misli
Baku Electronics
PAŞA Sığorta
Xəzər TREYD
VOLVO
SİRAB
FAB
kontakt
B2B GROUP


YÜKSƏK LİQA 2025-2026
silkway
west airlines
misli
Baku Electronics
PAŞA Sığorta
Xəzər TREYD
VOLVO
SİRAB
FAB
kontakt
AMO


SEKTOR 7
FHN XILASEDICI
ORDU VK




Aprelin 19-da isə GİN-in Voleybol Mərkəzində qadınların yarışında mükafatlar uğrunda oyunlar keçirilib. Tədbirdə gənclər və idman naziri Fərid Qayıbov və Azərbaycan Voleybol Federasiyasının (AVF) prezidenti Şahin Bağırov və digər rəsmi şəxslər iştirak ediblər.

İlk olaraq üçüncülük qarşılaşmasında "Milli Aviasiya Akademiyası" və "Gəncə" komandaları üz-üzə gəlib. Bu matçda "Gəncə" komandası 3:0 hesabı ilə qalib gələrək Yüksək Liqanın bürünc medalını qazanıb.

Ardınca baş tutan final oyununda "Turan" və "DH Volley" komandaları üz-üzə gəlib. Gərgin keçən qarşılaşmada rəqibini 3:1 hesabı ilə məğlub edən "Turan" çempion adını qazanıb.




LİQA 2025-2026
silkway
west airlines
misli
Baku
Electronics
PAŞA
Sığorta





Oyunlardan sonra mükafatlandırma mərasimi keçirilib. Həmçinin mövsümün ən yaxşı oyunçularına mükafatlar təqdim olunub. Mərasimdə çıxış edən Şahin Bağırov komandalara göstərdikləri əzmkarlığa görə təşəkkür edib. O, ölkədə voleybola göstərilən diqqət sayəsində yeni idmançıların yetişdiyini və klubların sayının artdığını vurğulayaraq qalibləri təbrik edib. AVF rəhbəri Gənclər və İdman Nazirliyinə, eləcə də aidiyyəti qurumlara, azarkeşlərə, media nümayəndələrinə və sponsorlara dəstəklərinə görə təşəkkür edib.

Sonra qaliblərə kubok və medallar verilib. Çempionlara kuboku gənclər və idman naziri Fərid Qayıbov və AVF-nin prezidenti Şahin Bağırov təqdim edib. Medalları isə voleybolçulara Azərbaycan Voleybol Federasiyasının vitse-prezidenti Faiq Qarayev, "Demirören Yatırım Holdinq"in prezidenti Yıldırım Demirören və "Turan" voleybol klubunun prezidenti Həsən Zeynalov təqdim edib.

***Şəfəq Kərimova***

## FƏRQLƏNƏN OYUNÇULAR:

"Ən dəyərli oyunçu" (MVP) – Marta Drpa ("Turan")

"Ən gənc və perspektivli oyunçu" – Xədicə Seyidli ("Abşeron")

### *RƏMZİ KOMANDA:*

"Ən yaxşı toppaylayıcı" – Natalia Gajewska ("DH Volley")

"Ən yaxşı hücumçu" – Danijela Dzakovic ("Milli Aviasiya Akademiyası")

"Ən yaxşı hücumçu" – Alla Alekumova ("DH Volley")

"Ən yaxşı libero" – Joseline Landeros ("Turan")

"Ən yaxşı orta oyunçu"– Ayşən Abduləzimova ("Turan")

"Ən yaxşı orta oyunçu"– Melissa Randel ("Gəncə")

"Ən yaxşı diaqonal oyunçu" - Katerina Jidkova ("DH Volley")


1
TURAN VK


LİQA 2025-202
MİLLİ OLİMPİYA KOMİTƏ


azerlotereya
DH


12

# VOLEYBOL













URAN VK
SEKTOR 7
DH VOLLEY
DEMİRÖREN HOLDİNG
SEKTOR 8
DH VOLLEY
DEMİRÖREN HOLDİNG


SEKTOR 7
TURAN
SEKTOR 8
DH VOLLEY
DEMİRÖREN HOLDİNG







# BAKININ MƏRKƏZİNDƏ RAHA

## RAHAT VƏ KOMFORTLU QONAQLAMA

Bakıda yerləşən “Consul Hotel” ailələr üçün
hamamlı komfortlu otaqlar təqdim edir, hər o
mövcuddur.

## YEMƏK VƏ İSTİRAHƏT

Qonaqlar hotelin restoranında Avropa mətbə
rahat istirahət edə bilərlər. Hotel pulsuz Wi-F
transfer xidmətləri təqdim edir.

## ƏLVERİŞLİ YERLƏŞMƏ

Heydər Əliyev Mədəniyyət Mərkəzinə, Gənc
Atatürk Parkına, Dədə Qorqud Parkına, Gən
yaxın yerləşməsi ilə hotel şəhərin ən əlverişl

## ƏLAQƏ MƏLUMATLARI

Ünvan: Akademik Həsən Əliyev küçəsi, 364
Telefon: +994 12 465 12 82
E-mail: office@consulhotel.az
WhatsApp: +994 50 252 12 82















# ATLIĞIN YENİ ÜNVANI – CONSUL HOTEL

nəzərdə tutulmuş, kondisionerli, balkonlu və şəxsi
taqda çay–qəhvə dəsti, minibar və pulsuz Wi-Fi

əxinin ləziz təamlarından dada bilər, bar zonasında isə
Fi, 24 saat fəaliyyət göstərən resepsiyon və ödənişli

lik metrosuna 3 dəqiqəlik piyada məsafədə, Zooparka,
nclik Mall, Tofiq Bəhramov Stadionu və buz meydançasına
i nöqtələrindən birində fəaliyyət göstərir.

A Bakı, Azərbaycan




# SAHİL BABAYEV ABF-NİN PREZİDENTİ SEÇİLİB

***Gənclər və idman naziri Fərid Qayıbovun iştirakı ilə Azərbaycan Boks Federasiyasının (ABF) ümumi yığıncağı keçirilib. Tədbirdə qurumun son illərdəki fəaliyyəti müzakirə olunub və rəhbər heyətə seçkilər keçirilib.***

Federasiyanın baş katibi Nağı Səfərov 2022-2026-cı illəri əhatə edən hesabatı təqdim edib. Bildirilib ki, dövlət başçısı İlham Əliyevin idmana göstərdiyi diqqət sayəsində boksçularımız son dörd ildə böyük uğurlara imza atıblar. Bu dövr ərzində idmançılarımız beynəlxalq arenada 178 qızıl, 165 gümüş və 307 bürünc olmaqla, ümumilikdə 650 medal əldə ediblər. Həmçinin bir sıra rəsmi turnirlərdə yeni rekordlar qeydə alınıb, regionlarda





maddi-texniki baza gücləndirilib.

Yığıncağın sonunda növbəti dörd il üçün keçirilən seçkilərin nəticələri elan olunub. Sahil Babayev yenidən Azərbaycan Boks Federasiyasının prezidenti seçilib. Natiq Həsənov və Vaqif Kazımov vitse-prezidentlər, Fuad Hacıyev və Rövşən Hüseynov isə İdarə Heyətinin üzvləri vəzifəsinə gətiriliblər.

Etimada görə təşəkkürlərini bildirən Sahil Babayev, gələcək fəaliyyət planları və boksun inkişafı üçün atılacaq addımlar barədə iştirakçıları məlumatlandırıb.



# TİRANADA "QIZIL DUBL"



***2026-cı il 20-26 aprel tarixlərində Albaniyanın paytaxtı Tiranada güləş üzrə Avropa çempionatı keçirilib. Turnirdə Avropanın müxtəlif ölkələrindən 600-dən çox idmançı mübarizə aparıb. Bütün görüşlər Tiranadakı müasir "Feti Borova" Olimpiya Parkında baş tutub. 2017-ci ildə istifadəyə verilmiş bu müasir tikili xüsusi olaraq güləş, ağır atletika, basketbol və voleybol kimi olimpiya idman növləri üzrə həm məşqlər, həm də beynəlxalq turnirlər üçün nəzərdə tutulub. "Feti Borova" zalı təxminən 1200-1400 tamaşaçı tutumuna malikdir ki, bu da Avropa səviyyəli çempionatların yüksək səviyyədə təşkilinə imkan verir.***




Azərbaycan güləşçiləri Albaniyanın paytaxtı Tiranada keçirilən Avropa çempionatında misilsiz uğura imza ataraq qitənin ən güclüsü olduqlarını bir daha sübut etdilər. Həm yunan-Roma, həm də sərbəst güləş yığmalarımız komanda hesabında Avropa çempionu adını qazanaraq vətənə böyük qələbə ilə döndülər.

## Yunan-Roma güləşi

Yunan-Roma güləşi üzrə Azərbaycan millisi turniri 2 qızıl və 3 bürünc medalla (cəmi 133 xal) başa vuraraq titulunu qorudu və komanda hesabında birinci yeri tutdu. Türkiyə 121 xalla ikinci, Gürcüstan isə 118 xalla üçüncü oldu.

Qızıl medalları 67 kq-da çıxış edən Həsrət Cəfərov və 82 kq-da güləşən Qurban Qurbanov qazanaraq qitənin ən güclüsü olduğunu sübut etdilər. Qürur hissi ilə qeyd edək ki, Həsrət Cəfərov bu qələbəsilə Azərbaycan yunan-Roma güləşi tarixində ilk dəfə dördüncü dəfə qitə çempionu adını qazanıb.






Bürünc mükafatlara isə Rəşad Məmmədov (55 kq), Nihat Məmmədli (60 kq) və İslam Abbasov (87 kq) sahib çıxaraq, komandanın hesabına aktiv xallar yazdırıblar.



Qurban Qurbanov



## Həsrət Cəfərov: "Qızıl medalı qazananda bütün çətinlikləri unudursan"

"Bu gün bizim günümüzdür, çox xoşbəxtəm. Ardıcıl dördüncü dəfə Avropa çempionu oluram. Bu, həqiqətən çox çətindir, lakin şükürlər olsun ki, buna nail olduq. Rekord qırdım, olimpiya çəkisində dördüncü dəfə Avropa çempionu oldum. İlk növbədə mənim üçün dua edən və uğurlarıma sevinən hər kəsə təşəkkür edirəm. Bunun arxasında nəhəng əmək dayanır. Bütün bu çətinlikləri aşdıqdan sonra nəticədən zövq alırıq. Qızıl medalı qazandıqdan sonra artıq keçdiyin bütün çətinlikləri unudursan. Allaha şükürlər olsun ki, məni buna layiq gördü. Bu qızıl medalımı, bu tarixi uğurumu qızıma həsr edirəm".



## Sərbəst güləş

Avropa çempionatı Azərbaycanın sərbəst güləş yığmasının möhtəşəm zəfəri ilə başa çatıb. Millimiz yarışda 3 qızıl, 2 gümüş və 1 bürünc medal qazanaraq ümumi hesabda 152 xal toplayıb və altıncı dəfə Avropa çempionu adını qazanıb. Komandamız ən yaxın izləyicisi olan Gürcüstanı 58 xal qabaqlayaraq böyük üstünlüklə birinci olub. Turnirdə üçüncü yeri isə 73 xalla Ermənistan tutub.

Güləşçilərimiz Albaniyadakı bu çıxışları ilə medalların əyarına görə son 17 ilin rekordunu yeniləyiblər. Bu, 2009-cu ildən bu yana qitə birinciliklərində qeydə alınan ən yüksək göstəricidir.

### *Yarışda medal qazanan idmançılarımız:*

**Qızıl:** İslam Bazarqanov (57 kq), Ali Tsokayev (92 kq), Giorgi Meşvildişvili (125 kq);
**Gümüş:** Turan Bayramov (74 kq), Arseniy Djioyev (86 kq);
**Bürünc:** Cəbrayıl Hacıyev (79 kq).

Qadın güləşçilərimiz də komanda “daxılına” öz sərmayələrini yatırmağı bacardılar. 57 kq-da çıxış edən Jalə Əliyeva və 59 kq-da çıxış edən Günay Qurbanova bürünc medal əldə edərək onlara bəslənən etimadı doğrultdular. Ümumilikdə, Azərbaycan güləşçiləri Tirana xalçalarından 13 medal (5 qızıl, 2 gümüş, 6 bürünc) çıxararaq ölkəmizin idman şərəfini layiqincə qorudular.




İslam Bazarqanov




Ali Tsokayev


GOLD MEDAL - MESHVILDISHV G. (AZE)
SILVER MEDAL - BAJCAJEV V. (HUN)
BRONZE MEDAL - SIYAR M. (GER)
BRONZE MEDAL - BUYUKCINGIL H. (TUR)
FREESTYLE - SENIORS - 125 KG






***Aprelin 27-si, mayın 1-i tarixlərində Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Su İdman Növləri Federasiyasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 103-cü ildönümünə həsr edilən avarçəkmə və kanoe üzrə "Prezident Kuboku 2026" beynəlxalq reqatası keçirilib.***

"Prezident Kuboku 2026" beynəlxalq reqatasında Azərbaycan, Çexiya, Gürcüstan, Almaniya, Yunanıstan, Qazaxıstan, Qırğızıstan, Litva, Moldova, Rumıniya, Serbiya, İsveç, Tacikistan, Türkiyə, Ukrayna və Özbəkistandan 100-dən artıq idmançı mübarizə aparıb.

Turnir ilk dəfə olaraq Sərsəng su anbarında start götürüb. Qarabağın dilbər guşəsi Ağdərədə təşkil olunan tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Vətən uğrunda həyatını itirən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



""Prezident Kuboku 2026" beynəlxalq reqatasının rəsmi açılış mərasimi isə aprelin 28-i "Kür" Olimpiya Tədris-İdman Mərkəzində keçirilib. Həmçinin bildirilib ki, aprelin 28-i görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın doğum gününə təsadüf edir. Tədbir çərçivəsində Heydər Əliyev və Zərifə Əliyevaya həsr olunmuş videoçarx nümayiş etdirilib.

Açılış mərasimində çıxış edən Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin rəisi Azad Gözəlov və Azərbaycan Su İdman Növləri Federasiyasının icraçı vitse-prezidenti Fərhad Əliyev Prezident İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdiyi diqqət və qayğını xüsusi vurğulayıb.



Qeyd olunub ki, belə mötəbər yarışların təşkili Azərbaycanın idman ölkəsi kimi nüfuzunun daha da möhkəmlənməsinə xidmət edir. Eyni zamanda, yarışların Prezident İlham Əliyevin tapşırığı əsasında ilk dəfə Sərsəng su anbarında keçirilməsi xüsusi əhəmiyyət daşıyır.

Rəsmi hissədən sonra mərasim bədii proqramla davam edib. Proqram çərçivəsində folklor musiqiləri, iştirakçı ölkələrin milli musiqiləri ilə rəqs nümunələri və müxtəlif səhnə kompozisiyaları təqdim olunub. Tədbirdə həmçinin son illərin populyar "Döngə" musiqi qrupu canlı konsert proqramı ilə çıxış edib. Açılış mərasimi ənənəvi atəşfəşanlıqla yekunlaşıb.



## Coğrafiya genişlənir

2026-cı il reqatası iştirakçı coğrafiyasının genişliyi ilə seçildi. Avropa, Asiya və qonşu ölkələrdən gələn ən güclü avarçəkənlər həm kanoe, həm də akademik avarçəkmə növləri üzrə birincilik uğrunda mübarizə apardılar. Yarışın beynəlxalq statusu və rəqabətin səviyyəsi turniri regionun ən nüfuzlu su idmanı tədbirlərindən birinə çevirib.

Yarışlar həm gənclər, həm də böyüklər arasında bir neçə məsafədə (200, 500 və 1000 metr) keçirildi. Start xəttindəki həyəcan, finişdəki santimetrlərlə ölçülən fərqlər azarkeşlərə unudulmaz anlar yaşatdı.

Azərbaycan milli komandasının üzvləri doğma suların verdiyi üstünlükdən maksimum yararlanaraq yüksək nəticələr nümayiş etdirdilər. Gənc avarçəkənlərimizin beynəlxalq rəqiblərinə qarşı göstərdiyi əzmkarlıq ölkəmizdə bu idman növünün parlaq gələcəyindən xəbər verir.



## Azərbaycanın medal sevinci

Azərbaycan milli komandası bu mötəbər turniri yüksək nəticə ilə — ümumilikdə 9 medal (2 qızıl, 3 gümüş və 4 bürünc) qazanmaqla başa vurdu.

### Qızıl medallar

• **Azər İlyasov:** Akademik avarçəkmə növündə 1500 metr məsafəyə fərdi yürüşdə finişə hamıdan tez çataraq turnirin ən parlaq qələbələrindən birinə imza atdı.

• **Tengiz Qaqnidze və Qiyas Əhmədov:** İkinəfərlik kayak (K2) qayığında 200 metr məsafədə rəqiblərini geridə qoyaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxdılar.

### Gümüş medallar

• **Əlimurad Hacızadə:** Birnəfərlik kayak qayığında 200 və 500 metr məsafələrdə gümüş medallar qazandı.

• **Niyaz Məlikov və İvan Vorobyanski:** İkinəfərlik kayakda 200 metr məsafəyə yürüşdə gümüş medalın sahibi oldular.

### Bürünc medallar

• Sənan Cəfərzadə və Tahir Mövsümov (kayak, 1000m), Mustafa Vəlizadə və Elmir Tarverdiyev (kayak, 500m), həmçinin akademik avarçəkmədə Azər İlyasov və Tunar Məmmədzadə cütlüyü bürünc mükafatlarla komandamızın aktivini zənginləşdirdilər.




PRESIDENT
CUP 2026
INTERNATIONAL REGATTA
103 Anniversary of HEYDAR ALIYEV



## Mükafatlandırma mərasimi və qələbə sevinci

Turnirin kulminasiya nöqtəsi olan mükafatlandırma mərasimi böyük təntənə ilə keçdi. Mükafatlandırma mərasimlərində bir sıra dövlət rəsmiləri və idman ictimaiyyətinin nümayəndələri iştirak etdilər. Qaliblərə "Prezident Kuboku" və medallar təqdim olunarkən, Mingəçevir səmalarında atəşfəşanlıq və idman ruhu hakim idi.




Xarici qonaqlar və məşqçilər təşkilatçılıq səviyyəsinin yüksək olduğunu, Azərbaycanın qonaqpərvərliyini və idman infrastrukturunu xüsusi qeyd etdilər.

“Prezident Kuboku-2026” bir daha sübut etdi ki, Azərbaycan dünyada güclü idman ölkəsi kimi tanınmaqla yanaşı, həm də möhtəşəm beynəlxalq turnirlərin ən yaxşı ev sahibidir. Kür su-



ları üzərində yazılan bu zəfər salnaməsi gələcək Olimpiya çempionlarının yetişməsi üçün mühüm bir pillə oldu.

"Prezident Kuboku-2026" beynəlxalq reqatası, yalnız bir yarış deyil, həm də əsl idman bayramı kimi tarixin yaddaşına yazıldı.






# Azərbaycan Kuboku da “Sabah”da



**Azərbaycan Kubokunun qalibi adını qazanan “Sabah” ötən mövsümdə əldə etdiyi titulu qoruyub.**

Peşəkar Futbol Liqasından verilən məlumata görə, Bakı klubu son 9 mövsümdə ilk komanda olub ki, ardıcıl iki dəfə kuboku başı üzərinə qaldırıb.

Sonuncu dəfə buna “Qarabağ” nail olub. Ağdam klubu həmin vaxt ardıcıl 2 dəfə titulunu qoruyaraq üç mövsüm (2014/15, 2015/16, 2016/17) kubok qazanıb.

Daha üç komanda ardıcıl iki dəfə turnirin qalibi adına sahib çıxıb. İki dəfə buna nail olan “Neftçi” öncə 1994/95, 1995/96, ardınca 2012/13, 2013/14-ci illər mövsümlərində bunu bacarıb. Kəpəz” (1996/97, 1997/98) və “Xəzər Lənkəran” (2006/07, 2007/08) da eyni nailiyyəti gerçəkləşdirib.

# Azərbaycanın 7 karateçisi Avropa çempionu olub

**Azərbaycan karateçiləri Rumıniyanın Sfıntu-George şəhərində keçirilən fudokan üzrə Avropa çempionatında 9 medal qazanıblar.**

Karate Federasiyasından verilən məlumata görə, Babək Qələmzadə fərdi kumite üzrə böyüklər arasında mütləq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək qitə çempionu olub.

Elmir Kazımzadə (10-11 yaş, 40 kiloqram), Qorxmaz Səfərli (14-15 yaş, 65 kiloqram), Rəvan Şirinov (16-17 yaş, 65 kiloqram), Elton Əliyev (16-17 yaş, 75 kiloqram), Mehdi Abdullayev (16-17 yaş, +75 kiloqram) və Tahir Ələkbərov (U-21, +75 kiloqram) öz kateqoriyalarında birinci yeri tutublar.

Əli Hacıyev (U-21, 75 kiloqram) gümüş, Ayxan Pirquluyev (16-17 yaş, 65 kiloqram) isə bürünc mükafata sahib çıxıb.

Qeyd edək ki, Avropa çempionatında 22 ölkədən ümumilikdə 985 idmançı iştirak edib.




# Azərbaycanın bədii gimnastları Portuqaliyada iki qızıl medal qazanıblar



***Azərbaycanın bədii gimnastları Portuqaliyanın Portimao şəhərində keçirilən beynəlxalq turnirdə uğurla çıxış ediblər.***

Gimnastika Federasiyasından bildirilib ki, gənclər yaş kateqoriyasında Azadə Atakişiyeva və Nuray Muradlı komanda hesabında 94.000 xalla ABŞ və İtaliyanı geridə qoyaraq qızıl medal qazanıb.

Fərdi proqramda isə top ilə hərəkətlərin icrasında Azadə Atakişiyeva 25.500 xalla qızıl, Gövhər İbrahimova isə 25.900 xalla gümüş mükafata sahib çıxıb.

# Almaniyanın Barleben şəhərində Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş idman festivalı

***Heydər Əliyev adına Dünya Boks Komitəsinin və Diaspor Boks Liqasının birgə təşkilatçılığı, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Almaniyanın Barleben şəhərində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilmiş idman festivalı keçirilib.***

Festival Almaniyanın Maqdeburq şəhərindən və ətraf bölgələrindən gəlmiş sakinlərə əsl bayram ovqatı yaşadıb. Günboyu davam edən tədbirdə uşaqlar üçün qurulan attraksionlar, əyləncəli oyunlar və interaktiv proqramlar böyük maraqla qarşılanıb. Musiqi sədaları altında təşkil olunan rəqs proqramları isə festival iştirakçılarına xoş anlar bəxş edib. Ailələrin birlikdə vaxt keçirməsi, uşaqların sevinc dolu anları və tədbirdə hökm sürən səmimi atmosfer festivalın yadda qalan məqamlarından olub. Tədbirin əsas məramını Ulu Öndər Heydər Əliyevin uşaqlara, gənclərə və ailə dəyərlərinə verdiyi yüksək önəmin təbliği təşkil edib. Festival boyunca həm əyləncə, həm də idman elementlərinin vəhdəti iştirakçılar tərəfindən xüsusi rəğbətlə qarşılanıb.

Heydər Əliyev adına Dünya Boks Komitəsinin və Diaspor Boks Liqasının rəhbəri Yaşar Niftəliyev media nümayəndələrinə müsahibəsində yüksək təşkilatçılıq səviyyəsi ilə seçilən festivalın əsas məqsədinin Ümummilli Lider Heydər Əliyevin uşaqlara və gənclərə göstərdiyi diqqət və qayğını yaşatmaq, onların sağlam həyat tərzinə marağını artırmaq olduğunu vurğulayaraq deyib: “Biz Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunan bu festivalı hər il keçiririk. Belə böyük festivalı təşkil etmək təcrübəmiz ildən-ilə artır. Ən vacib məsələ odur ki, bu festival Azərbaycanın və Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Festivalda təhlükəsizlik məsələsi xüsusilə diqqət mərkəzində saxlanılıb. Biz burada təhlükəsizliyi ən yüksək səviyyədə qoruyuruq. Çünki bu tədbir uşaqların sevincinə səbəb olur, onlar festivalda əylənirlər. Biz də bu cür tədbirləri keçirməklə dahilərimizin xatirəsini yad edirik”.






Festivalda idmanın bir sıra, o cümlədən boks üzrə yarışların da təşkil olunduğunu deyən Yaşar Niftəliyev bildirib: “Bütün bunlar burada yaşayan azərbaycanlıların alman cəmiyyətinə inteqrasiyasına və lobbiçilik fəaliyyətinə böyük təsir göstərir. Biz bu festivalı davam etdirəcəyik, onun miqyasını ildən-ilə genişləndiririk. Bilirsiniz, idman insanları bir-birinə yaxınlaşdıran, böyük təbliğat imkanına malik idman növüdür. Biz də idmanın bu imkanlarından səmərəli istifadə etməkdə davam edəcəyik”.

Qeyd edək ki, festival çərçivəsində keçirilən boks turnirində müxtəlif ölkələrdən olan idmançılar mübarizə aparıblar. Yarışlar tamaşaçıların böyük marağına səbəb olub. Gərgin idman mübarizəsi şəraitində keçən turnirin qaliblərinə medal və kuboklar təqdim edilib.

Boks turnirinin hakimi Rolf Kunş bu barədə deyib: “Bu gün Maqdeburq yaxınlığındakı Barlebendə Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunan boks turniri keçirilir. Proqramda səkkiz döyüş var. Həyəcanverici qarşılaşmalar olacaq. Medallar və kuboklar uğrunda gərgin mübarizə gedir. Bütün iştirakçılara uğurlar arzulayıram. Heydər Əliyevin xatirə turnirinin hər il burada keçirilməsi ənənəyə çevrilib”.

Xatırladaq ki, Heydər Əliyev adına Dünya Boks Komitəsi 2012-ci ildə yaradılıb və beynəlxalq səviyyədə fəaliyyət göstərir. Komitə tərəfindən Ulu Öndər Heydər Əliyevin adını daşıyan dünya kəmərləri təsis olunub və müxtəlif ölkələrdən peşəkar boksçular həmin kəmərlər uğrunda mübarizə aparırlar.

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin uşaqlara və gənclərə göstərdiyi xüsusi diqqət, sağlam və vətənpərvər nəslin formalaşdırılması ilə bağlı ideyaları festivalın ümumi ruhunda aydın şəkildə hiss olunub. İdman, əyləncə və ailə dəyərlərini bir araya gətirən tədbir Ulu Öndərin zəngin irsinin və gənc nəslə yönəlmiş humanist yanaşmasının yaşadıldığını bir daha nümayiş etdirib.

# Güləş komandası Vyetnamdan 1 dəst medalla qayıdır



**Vyetnamın Dananq şəhərində çimərlik güləşi mövsümünə start verilib.**

Ayın əvvəli keçirilən Dünya Seriyasının ilk mərhələsində baş məşqçi Oyan Nəzərianinin rəhbərliyi altında ölkəmizi 4 güləşçi təmsil edib. Milli Vyetnamdan 1 dəst medalla qayıdır.

Əşrəf Aşırovun (90 kiloqram) çimərlik güləşində debütü uğurlu alınıb. Qrup mərhələsində maksimum nəticə göstərən həmyerlimiz yarımfinalda yunanıstanlı Mixail Akritidisə, finalda isə gürcüstanlı İuza Tsertsvadzeyə 3:1 hesabıyla qalib gələrək çempion olub.

Sahib Dadaşov (80 kiloqram) qrup 2-cisi kimi yarımfinala vəsiqə qazanıb. O, yarımfinalda fransalı Huqo Kuenoya şans tanımayıb – 3:0. Finalda gürcüstanlı Luka Çxitunidzeyə minimal fərqlə (1:2) məğlub olan Dadaşov gümüş medalı boynundan asıb.

Rübail İbrahimli (70 kiloqram) də qrup ikincisi kimi adını yarımfinala yazdırıb. Güləşçimiz finalın bir addımlığında rusiyalı Konstantin Topşinoyevə 0:1 hesabıyla məğlub olsa da, fransalı Kuentin Stikeri (2:1) üstələyərək fəxri kürsünün 3-cü pilləsinə yüksəlib.

Dörd çəkidən üçündə təmsil olunan millimiz 60 xal toplayaraq, komanda hesabında Gürcüstan (71) və Ukraynadan (65 ) sonra 3-cü yeri tutub.

# Şakira futbol üzrə 2026-cı il dünya çempionatının mahnısının anonsunu edib




**Kolumbiyalı müğənni Şakira futbol üzrə 2026-cı il dünya çempionatının rəsmi mahnısının anonsunu edib. “Dai Dai” adlı trek afrobits ifaçısı Burna Boy ilə birgə yazılıb.**

Xəbər verilir ki, müğənni premyera barədə sosial şəbəkə hesablarında məlumat yayıb və “Marakana” stadionunda çəkilmiş qısa videonu paylaşıb. Kadrlarda Şakira futbol meydançasında rəqqasların əhatəsində görünür. Müğənninin sözlərinə görə, mahnının tam versiyası mayın 14-də təqdim olunacaq.

“Marakana stadionundan – FIFA 2026 dünya çempionatının rəsmi mahnısı “Dai Dai”, – deyə ifaçı yazıb.

Şakira futbol üzrə dünya çempionatlarının “kraliçası” adlandırılır. Belə ki, onun mahnıları ardıcıl olaraq dörd dünya çempionatını müşayiət edib.

Futbol üzrə 2026-cı il dünya çempionatı iyunun 11-də Meksika milli futbol komandası ilə Cənubi Afrika milli yığması arasında keçiriləcək oyunla başlayacaq. Qarşılaşma Astek stadionunda təşkil olunacaq.

Turnirin final oyunu iyulun 19-na planlaşdırılıb. Görüş “MetLife” arenasında keçiriləcək.

Dünya çempionatı ilk dəfə eyni vaxtda üç ölkədə – ABŞ, Meksika və Kanadada təşkil olunacaq. Turnirdə 48 milli komanda iştirak edəcək. Rusiya yığması əvvəlki kimi yarışdan kənarda saxlanılıb.

AA
CYBERLINE

## THE GYM – ÇEMPİONLARIN DOĞULDUĞU MƏKAN!

Bugünkü gündə idman və sağlam həyat tərzi sadəcə gözəl görünmək üçün deyil, həm də güclü iradənin, intizamın və məqsədə doğru atılan düzgün addımların göstəricisidir. Məhz belə bir yanaşmanı özündə birləşdirən və bu prinsiplərlə fəaliyyət göstərən aparıcı idman mərkəzlərindən biri – THE GYM-dir.

Peşəkar yanaşma, yüksək səviyyəli xidmət və real nəticələr THE GYM-i ölkənin ən çox seçilən idman zallarından birinə çevirib. Bu il THE GYM "İlin ən yaxşı fitness klubu" adına layiq görülüb. Bu, təkcə müasir avadanlıq və şəraitin mükəmməlliyi ilə deyil, həm də burada çalışan məşqçi heyətinin peşəkarlığı, üzvlərə göstərilən fərdi yanaşma və yarışlarda əldə olunan uğurlu nəticələr sayəsində mümkün olub.

## MƏŞQÇİLƏR – UĞURUN ƏSASI

THE GYM-in ən böyük üstünlüyü onun çempion məşqçiləridir. Hər biri öz sahəsində uğur qazanmış, ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil etmiş peşəkarlardır:

- **HƏSƏNOV NADİM** – Azərbaycan Respublikasının Bodibildinq Federasiyasının üzvü və baş məşqçisi, bodibildinq üzrə ağır çəkidə Azərbaycan çempionu, bodibildinq üzrə idman ustası və ixtisaslaşmış idman həkimidir. O, təkcə fiziki hazırlıqla deyil, idmançının sağlamlığı və performansına dair hərtərəfli yanaşması ilə seçilir.





- **İSMAYIL HƏBİYEV** – Azərbaycan Respublikasının Fitness və Bodibildinq Federasiyasının yığma komandasının üzvü, Azərbaycan çempionu və Avropa çempionudur. Bu nailiyyətləri ilə o, THE GYM-in uğur simvollarından birinə çevrilib.



- **SAMİR MƏMMƏDLİ** – Azərbaycan Respublikasının Fitness və Bodibildinq Federasiyasının üzvü, dünya kubokunun qalibi, həmçinin Azərbaycan çempionudur. Onun uğurları və təcrübəsi bir çox idmançının inkişafında mühüm rol oynayıb.

Bu məşqçilər yalnız fiziki forma qazandırmır – onlar güclü xarakter, iradə və motivasiya aşılayır, hər bir üzvün potensialını üzə çıxarır.

## YÜKSƏK KEYFİYYƏTLİ AVADANLIQ VƏ KOMPLEKS XİDMƏT

THE GYM-in daha bir üstünlüyü – müasir və peşəkar idman avadanlıqlarıdır. Zal, İtaliyanın PANATTA brendinə məxsus ən son texnologiyalı avadanlıqlarla təchiz olunub. Bu isə məşqlərin daha effektiv, təhlükəsiz və məqsədyönlü şəkildə aparılmasına imkan yaradır.

Zalda qadınlar və kişilər üçün ayrı məşq zonaları, fərdi və qrup proqramları, həmçinin peşəkar nəzarət sistemi mövcuddur. Bundan əlavə, THE GYM fərqlənir: burada üzvlərin rahatlığı üçün restoran, bərbərxana, gözəllik xidmətləri, solarium, sauna, istirahət otaqları və VIP soyunma kabinələri fəaliyyət göstərir. Bu, THE GYM-i təkcə zal deyil, tam bir həyat tərzi mərkəzinə çevirir.

## YALNIZ NƏTİCƏ İSTƏYƏNLƏR ÜÇÜN

THE GYM hər kəs üçün açıqdır, amma bura təsadüfi gələnlərin deyil – dəyişmək, inkişaf etmək və qalib gəlmək istəyənlərin məkanıdır. Burada məqsədinizə uyğun məşq proqramı tərtib olunur, nəticələriniz izlənilir və sizə ən uyğun dəstək göstərilir.

Hər bir üzv üçün fərdi yanaşma, motivasiya, davamlı dəstək və çempionlara layiq mühit yaradılır. Burada hər şey sizi daha güclü, daha sağlam və daha özünəinamlı biri olmağa yönəldir.


## THE GYM – BURADA YALNIZ NƏTİCƏLƏR DANIŞIR!

+994 10 220 05 55

thegym.az

Aşıq Molla Cümə 44

THE GYM

# MONARCH PREMIUM RESIDENT

ALANYA / KARGICAKTA SİZLER İÇİN ÖZEL OLARAK İNŞAA EDİLMİŞTİR.

## *Sizlerin de Türkiyede evi olsun!*











Monarch Premium Resident, İtalyan mimarisinden ilham alarak tasarlanmış, içi ve dışıyla gerçekten dikkat çekici bir proje olup Kargıcak'ın en kaliteli ve prestijli lüks konut projesidir. Bu muazzam daireler, alışveriş ve yemek merkezlerine yakın, denize yürüme mesafesinde yer almakta olup aynı zamanda bütün dairelerimiz deniz manzarasına sahiptir. Monarch Premium Resident, yaşamınıza değer katacak bir lüks deneyim sunmaktadır. Sizi bu benzersiz konut projesini keşfetmeye davet ediyoruz!

İnşaatı tamamlanan dairelerimiz Antalya / Alanya - Kargıcak bölgesindedir.
Dairelerimizin tamamı deniz manzaralıdır.
3+1 Doublex Daireler 450.000 €'dan, 2+1 Doublex Daireler 460.000 €'dan
ve 1+1 Geniş Daireler 250.000 €'dan başlayan fiyatlarla...

İletişim için
Whatsapp Hattı:
+90 555 170 90 03

Adres : Kargıcak, Maklinistler Sk.
No:3, 07400
Alanya / Antalya